Kredo 2019.- 23 oktyabr.- S.14.

*(Əvvəli ötən sayımızda)*

Ən maraqlısı... iki köhnə dost - Fayaz ilə Danyar indi meydanda rəqib kimi görüşürdülər.

Ertəsi gün həlledici oyun. Bir otaq-da iki rəqib sabahkı oyunun necə başa catacağı barədə səsiz fikirləşirdi. Bu vaxt Fayaz yerindən ehtiyatla qalxaraq, ağlına gələn təklifi otaq yoldaşına elan etdi.

- Doni, bilirsənmi? Ağlıma əla fikir gəlib.

- Oğuldumu, qızdımı? - Daniyar bu sözləri zarafata cevirdi.

- Sözüm budu, - zarafata fikir verməyən Fayaz ciddi şəkildə davam etdi. - Sabah sən mənə qalib gəlmək istəyirsən, eləmi?

Daniyar ciynini çəkdi.

- Bilmirəm, bunu sabah görərik.

- Doni, cən mənim həqiqimi dostumsan?

Daniyar söhbətin bu qədər uzaqdan başlanmasının səbəbini başa düşsədə özünü bilməməzliyə vurdu.

- Əgər özün belə düşünürsənsə...

- Sözüm budu, əgər səmimi qəlbdən mənim həqiqi dostumsansa sabah mə-nim üçün... oyunda məğlub olmalısan.

Daniyar qəribə gülümsədi.



*Rüstəm*
**CABBAROV**

halda, aradan bir günmü, iki günmü ötdükdən sonra bütün qınaqları unudaraq, yenə Daniyarla can ciyər oldu. Günlər adi axınında davam edirdi.

Bu hadisədən sonra aradan iki ay keçmişdi. Daniyar Şərqiyəni gəzməyə aparanda, o onun davranışında qəribə dəyişikliklər hiss etməyə başladı, lakin o hətta belə ağlına gətirə bilmirdi ki, bütün bunlar bəlkə də Fəyyazla bağlıdır.

Günlərin birində Fəyazla Şərqiyə axşam saatlarında qızların otağında bir araya gəldilər, onların nəzərində dünya alt-üst oldu. Amma o vaxt onlar öz hərəkatində heç bir ədəbsizlik görməmişdilər. Lakin hansı gənc oğlan, gecə saat ondan sonra sevgilisinin başqa bir oğlanla təklikdə danışdığını görsəydi bunu düzgün qəbul edərdi?

*povest*

# XƏYANƏTİN KƏSİŞMƏSİ

- Onda sən mənim həqiqi dostum deyilsənmi?

- Bu nə deməkdir?

- Əgər sən həqiqi dostsansa onda bu təklifdən əvvəl hisslərini cilovlaya bilərdin.

- Bu dəfə mən sənin dostluğunu sınamaq istəyirdim, - Fəyaz tələyə düşdüyünü başa düşüb özünü toparladı. - Yaxşı, indi bir... xahişim var!

- Yoldaş bilirsənmi, - Daniyar arxası üstə uzanıb oxuduğu kitabı bir tərəfə qoyub, vacib söhbətə hazırlaşan kimi, ciddi şəkildə otaq yoldaşına üz tutdu. - Bu-mərdi meydan oynudu. Qəsdən oyunu uduzmaq ya da oyunda görüntü yaratmaq bu oyunun xarakterinə uyğun gəlmir. Gəl, şahmat taxtası qarşısında şəxsi münasibətlərimizi bir tərəfə qoyaq. Axı bu da sizin üçün maraqlı deyilmi? Məsələn, mən bu oyunda qələbə barədə fikirləşmirəm. Səhər bəzi şahmat fanatları bizdən həqiqi, əyləncəli və cəsarətli oyun gözləyəcəklər. Bunun üçün də bu oyuna heç bir zərər vermədən, var güçümüzlə, bütün biliymizi cəmləşdirərək oynamalıyıq. Bu oyunun qaydası budur-güçlülər qalib gəlir.

Fəyaz bir söz demədi. Ertəsi gün final matcında öz qarşısında dörd illik bir dostunu yox, sözün əsil mənasında rəqibini görərək, soyuqqanlıqla öz yerini tutdu. Nəhayət, mübarizə başlandı. Əlverişli gedişlər sonda isə... Daniyarın dəqiq oyunu güclü rəqibini mat vəziyyətinə salması onları izləyən tamaşacıların gur alqışlarına səbəb oldu. Hamı Daniyarı qucaqlayaraq bağırına basır, onun qələbəsini qeyd edikləri zaman çox maraqlı bir hadisə oldu. Kənarda qəmgin və hirsli duran Fəyaz, birdən dəli kimi yanındakı şahmat taxtasını qaldıraraq stola cırpdı. Şahmat taxtası az qala kiminsə başını yarsın, fiqurlar isə ayna parcaları kimi dörd tərəfə səpələndi.

Həmin axşam Daniyar otaqda Fəyazı çox pis əhval-ruhiyyədə tapdı. Onunla yanaşı oturub, vəziyyətini yumşaltmaq üçün, əlini çiyninə qoydu.

-Dostum, sən niyə kədərlənirsən? Axı bu oyundu! İdmandı! Nahaq məndən inciyirsən. Dostum, həqiqətin gözünə dik baxmağı öyrənmək lazımdı. Ərəstun deyib ki, həqiqət dostluqdanda güçlüdür.

Fəyaz ona qəzəbləndi.

- Həqiqət ondadır ki, mən səndən daha güclüyəm, - deyərək danışdı. Hər halda, ikimizdə bütün güçümüzü toplayaraq oynadıq. Əgər sizin imkanınız olsaydı, mənə qalib gələrdiz. Axı sən də qələbə uçün oynayırdın, elədirmi?

Fəyaz cavab vermədi. Bütün hadisələrdə elə bu cahillikdən başladı. Hər

Əvvəlcə hər ikisi özlərini haqlı hesab etməyə başladılar. Hətta yaxşı ki, birlikdə dərs hazırlamaq, istəmədilər? Hadisələrin sonrakı inkişafı olduqca fərqli idi. Bü cür görüşlərlə yanaşı onların gizli görüşləri ətrafdakırın söz söhbətinə səbəb olmuşdu.

Daniyar Şərqiyə ilə iki üc dəfə görüşüb söhbət etdi. Əvvəllər öğlanlarla istənilən mövzüdə sərbəst danışan, bütün söhbətlərdə deyib gülən Şərqiyə indi tamamilə dəyişmişdi. O Daniyar ilə danışsa da, xəyalı tamamilə başqa yerdə olurdu. Söhbət zamanı həmişə gözlərini gizlətməyə calışırdı. Söhbətini tələsik yekunlaşdıraraq, Daniyardan uzaqlaşmağa nail olurdu. Nəhayət, bıçaq sümüyə dirəndi, Daniyar Fəyazın qəlbinə kölkə saldı.

-De görüm, Şərqiyəni niyə sakit qoymursan? İnstitun qızları sənə azlıqmı edir? Axı biz biri-birimizi sevirdik. Niyə çalası kimi, aranı qatırsan? Bu qədər qızı aldatdın, sənə bəs etmədimi? İndi öz dostuyun bəyəndiyi qıza gözmü tikibsən?

Fəyaz söhbətin sanki elə bil onun barəsində getmədiyini göstərərək, laqeyidliklə yaxasını onun pəncəsindən cəkib, vüqarla ayağa qalxdı:

-Yoldaş, sən ki, məsələyə bir çıxış yolu axtarırsan. Onda özün de, nə vaxtsa Şərqiyə sənə sevirəm deyibmi?

O xatırlamağa çalışdı. Doğrudur, üç ildir ki, o Şərqiyəyə ürəyini açıb öz sevqisini elan etmişdi. Şərqiyə də onun məhəbbətini rədd etməmişdi. Sadəcə o gülürdü. Bunu isə Daniyar razılıq əlaməti kimi qəbul edirdi. Budur, bir ildir ki, onlar görüşürlər. Bir yerdə bir neçə dəfə kinoya, teatra, konsertə getmişdilər. İstirahət parkında və bulvarda dincəlmişdilər. Bu vaxta kimi bir dəfə də olsun qızı qucaqlayıb bağrına basmağa cürət etməmişdi. Bu sual isə, eləbil onu ayıltdı. Deməli, onun hər şeydən xəbəri var.

-Bu mənim işimdir, - Daniyar sinəsini qabağa verdi.-Sən burnunu soxma.

-Sualıma cavab vermədin. Cavabını özüm verəcəm: o səni sevmir.

-Belə deməyə sənin haqqın yoxdu, - Daniyar yüksək səslə qışqırdı.

-Gəl, kişi kimi Şərqiyənin özündən soruşaq. Qoy onun özü bunu həl etsin. Kimi seçmək onun işidir. Əgər, o səni secsə, bu qızla danışmağıma son qoyacam, hətta onun adını belə dilimə gətirməyəcəm. Əgər yoxsa...

Razı olmaqdan başqa yol qal-mamışdı. Artıq, Daniyar yaxşı başa dü-şürdü ki, bütün bu həngamə onun şahmatda qələbəsinə cavabdı.

*(Davamı var)*

*Tərcüməçi:*
*Ədalət MƏMMƏDOV*